Arifi-laməkan otuz ikidir,
Sahibi-cismü can otuz ikidir.

Aç könül gözünüvü güzgüyə bax,
Ki yəqin, bigüman otuz ikidir.

Çün üzündür kitab, ayatı
İstiva ilə san otuz ikidir.

Endi İsa, gətirdi şirki-xilaf,
Uştə sahibzaman otuz ikidir.

Sidrətül-müntəhanın əqsamı,
Sayır isən, haman otuz ikidir.

Sənsən ümmül-kitabın əsrarı,
Bil ki, səbül-məsan otuz ikidir.

Vəhyü ilhamü ya nəbiyyü vəli,
Verən, alan əyan otuz ikidir.

Gör Nəsimi ki, surətü mə`ni,
Aşikarü nihan otuz ikidir.

***

Canımı yandırdı şövqün, ey nigarım, qandasan?
Gözlərim nuru, iki aləmdə varım, qandasan?

Bağrımı qan eylədi acı fəraqın, gəl iriş,
Ey ləbi vüslət şərabi-xoşgüvarım, qandasan?

Firqətin xarı məni gör kim, nə məcruh eylədi,
Ey gözü nərgis, həbibi-gülüzarım, qandasan?

Səbrimi yəğmaladı şövqün, qərarım qalmadı,
Ey mənim aramım, ey səbrü qərarım, qandasan?

Eylədi eşqin məni qalxan məlamət tirinə,
Ey gözü, qaşı yeləkli şəhriyarım, qandasan?

Ta üzün şəmindən iraq düşmüşəm, pərvanətək
Yanaram leylü nəhar, ey nurü narım, qandasan?

Səndən ayru könlümün yoxdur vəfalı yarü dust,
Ey cəfasız hüsni-kamil, yariğarım, qandasan?

Dəldi hicranın oxu eşqində yanan bağrımı,
Surətü mə`nidə, ey çapüksüvarım, qandasan?

Zülfünə vermiş əmanət həq əzəldə sirrini,
Ey əmanətdar, əmini-kirdigarım, qandasan?

Qatı müştaq olmuşam zülfü üzarın buyinə,
Ey üzü gülşən, saçı mişki-tatarım, qandasan?

Badilən göndər saçın buyin mana hər sübhdəm,
Ta ki yandım, keçdi həddən intizarım, qandasan?

Aşiqin cənnati-ədni şol camalın vəslidir,
Ey şərabi-kövsərim, getməz xumarım, qandasan?

Yar üçün hər guşədə min div olur düşmən mana,
Ey səvadi-əzəmü möhkəm həsarım, qandasan?

Çün Nəsimidir bu gün əyyami-eşqin Xosrovu,
Ey şəkərləb, yari-şirinruzigarım, qandasan?

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 31.